T.C.
NEVŞEHİR ÜNİVERSİTESİ
SOSYAL BİLİMLER ENSTİTÜSÜ

# "AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜGƏTİ" ADLI SÖZLÜĞÜN KİRİL HARFLERİNDEN LATİN HARFLERİNE AKTARILARAK, TÜRKİYE TÜRKÇESİNE ÇEVİRİSİNİN YAPILMASI"

Yüksek Lisans Tezi

Esra ÇAKIROĞLU

Danışman

Yrd. Doç. Dr. İbrahim Ethem ÖZKAN

Türk Dili ve Edebiyatı Ana Bilim dalı

Nevşehir

2013

Bütün hakları saklıdır.

Kaynak göstermek koşuluyla alıntı ve gönderme yapılabilir.

© Esra ÇAKIROĞLU, 2013

# BİLİMSEL ETİĞE UYGUNLUK BEYANI

Bu çalışmadaki tüm bilgilerin, akademik ve etik kurallara uygun bir şekilde elde edildiğini beyan ederim. Aynı zamanda bu kural ve davranışların gerektirdiği gibi, bu çalışmanın özünde olmayan tüm materyal ve sonuçları tam olarak aktardığımı ve referans gösterdiğimi belirtirim.

**Esra ÇAKIROĞLU**

# KILAVUZA UYGUNLUK ONAYI

**“Azərbaycan Dilinin Sinonimlər Lügəti” Adlı Sözlüğün Kiril Harflerindn Latin Harflerine Aktarılarak, Türkiye Türkçesine Çevirisinin Yapılması”** adlı yüksek lisans / doktora tezi, Nevşehir Üniversitesi Sosyal Bilimler Enstitüsü Lisansüstü Tez Kılavuzu’na uygun olarak hazırlanmıştır.

| Tezi Hazırlayan | Danışman |
|---|---|
| Esra ÇAKIROĞLU | Yrd. Doç. Dr. İbrahim Ethem ÖZKAN |

**Türk Dili ve Edebiyatı Ana Bilim Dalı Başkanı**

**Yrd. Doç. Dr. İbrahim Ethem ÖZKAN** danışmanlığında **Esra ÇAKIROĞLU** tarafından hazırlanan " **'Azərbaycan Dilinin Sinonimlər Lügəti' Adlı Sözlüğün Kiril Harflerinden Latin Harflerine Aktarılarak, Türkiye Türkçesine Çevirisinin Yapılması"** adlı bu çalışma, jürimiz tarafından Nevşehir Üniversitesi Sosyal Bilimler Enstitüsü, Türk Dili ve Edebiyatı Anabilim Dalında Yüksek Lisans tezi olarak kabul edilmiştir.

11.02.2013

**JÜRİ** **İmza**

Danışman : Yrd. Doç. Dr. İ. Ethem ÖZKAN ..............................

Üye : Yrd. Doç. Dr. Parvana BAYRAM ..............................

Üye : Yrd. Doç. Dr. Zafer YEŞİLÖZ ..............................

**ONAY**

Bu tezin kabulü Enstitü Yönetim Kurulunun 11.02.2013 tarih ve 2013.05.02 sayılı kararı ile onaylanmıştır.

11.02.2013

**Enstitü Müdürü**

**Doç. Dr. Alper ASLAN**

# ÖZET

## "AZƏRBAYCAN DİLİNİN SİNONİMLER LÜGƏTİ" ADLI SÖZLÜĞÜN KİRİL HARFLERİNDEN LATİN HARFLERİNE AKTARILARAK, TÜRKİYE TÜRKÇESİNE ÇEVİRİSİNİN YAPILMASI"

**Esra Çakıroğlu**
**Nevşehir Üniversitesi, Sosyal Bilimler Enstitüsü**
**Türk Dili ve Edebiyatı Ana Bilim Dalı, Yüksek Lisans Tezi, Nevşehir 2013**
**Danışman: Yrd. Doç. Dr. İbrahim Ethem ÖZKAN**

Tezimiz, İsmail Memmedov ve Hasret Hasanov'un birlikte hazırlamış oldukları, "Azərbaycan Dilinin Sinonimlər Lügəti" isimli sözlüğün, Kiril harflerinden Latin harflerine aktarımı ve ardından Türkiye Türkçesine çevirisini konu edinmektedir. Söz konusu eser; Azerbaycan Türkçesine ait olup eş anlamlı dizilerin bir araya getirilmesiyle oluşturulmuş sinonim bir sözlüktür.

Azeri Türkçesiyle ve Kiril harfleriyle yazılmış sinonimler sözlüğü; tek cilt halindedir. Sarı saman kâğıda basılan eser, yine Kiril harfleriyle sözlüğün isminin yazılı olduğu kalın bir kapaktan oluşmaktadır. Eser 1990 yılında basılmıştır. Uzun bir tanıtım yazısı ve önsözün ardından verilen sözlüğün içeriği; kalın harflerle yazılmış bir baş sözcük ve onu takip eden aynı manadaki sözcüklerin sıralanmasından oluşmuştur. Sinonim dizinin ilk sözcüğü seçilirken diğer kelimeleri kapsayan ve en genel manada olan kelime tercih edilmiştir.

Sözlüğün orijinali Kiril harfleriyle yazılmış önsöz ve sözlükle birlikte tamamı 472 sayfadır. Sözlük kısmı tek sütun halindeki kelime dizilerinden oluşmaktadır. Bizim tezimiz; önsözle sözlüğün Latin harfleriyle öncelikle Azeri Türkçesi ve ardından Türkiye Türkçesiyle sunulmasından oluşmuştur. Çalışmanın sözlük kısmı iki sütun şeklinde verilmiştir. Tezin tamamı 421 sayfadır.

Tez yazımında, Ahmet Bican Ercilasun'un "Örneklerle Bugünkü Türk Alfabeleri" adlı kitabından Türkî lehçelere ait gerek muhteva gerekse metin örnekleri açısından yararlanılmıştır. Ercilasun, kitabının önsözünde dünya Türklerini birbirlerini okur hale getirmeyi hedeflediğini belirtmiştir.

Tezimizin yazılış amacı; sinonim sözlüğündeki Azerbaycan Türkçesine ait kelimeleri Latin harflerinde görmek ve bu kelimelerin Türkiye Türkçesindeki karşılıklarıyla birlikte her iki lehçenin kelimeleri arasındaki benzer ve farklı yönleri ortaya koymaktır.

**Anahtar Sözcükler:** Azerbaycan, sinonim, sözlük, çeviri.

# ABSTRACT

## TO TRANSLATE TURKEY TURKİSH OF "AZERBAİJAN LANGUAGE SYNONYM DİCTİONARY" NAMED DİCTİONARY,BY TRANSFERİNG FROM CYRİLLİC LETTERS TO LATİN ALPHABET

**Esra ÇAKIROĞLU**
**Nevşehir University, Institute of Social Sciences**
**Turkish Language and Literature, Master Thesis, January, 2013**
**Supervisor: Yrd. Doc. Dr. İbrahim Ethem ÖZKAN**

This thesis is about the transfer from Cyrillic letters to Latin letters and translating to Turkey Turkish of the dictionary that is named “Azerbaycan Dilinin Sinonimler Lügati”, by İsmail Memmedov and Harset Hassanov. The mentioned creation is belong to Azerbaijan Turkish and is a synonym dictionary consisting of a combination of synonym sequences.

The synonym dictionary writed with Cyrillic letters and Azerbaijan Turkish is one tome. The creation is printed on yellow straw paper and has a thick cover writed on it name of dictionary. The dictionary is printed in 1990. The contents of the dictionary given after an introductory and a long preface is formed a head word in bold letters and in an order of the words in the same meanings which follow the head word. While selecting the first word of synonym order, the word that contains the other words and in general meaning is prefered.

The original dictionary is writed with Cyrillic letters 472 pages including preface and dictionary. Dictionary part consists a sequence of words in single column form. Our thesis consists presentation of introductory and preface with Latin
Alphabet by firstly Azeri Turkish and after that Turkey Turkish. Dictionary part of study is given in double column form. All of the thesis is 421 pages.

In this thesis, be taken advantage of the book named “Örneklerle Bugünkü Türk Alfabeleri” by Ahmet Bican Ercilasun, in terms of content and text examples that is belong to Turkish dialect. Ercilasun has stated that he aims to make all world Turkish read each other on the preface of his book.

The purpose of writing this thesis is revealing as seen in Latin Alphabet of many words in synonym dictionary belong to Azerbaijan Turkish and conclude differences and similarities between Turkey Turkish.

**Key Words:** Azerbaijan, synonyms, dictionary, translation.

# ÖNSÖZ

Azerice, Azeri Türkçesi, Azerbaycan Türkçesi veya Azerbaycan Dili, Türk dilleri ailesinin Oğuz Grubunda bulunan ve Türkiye Türkçesine çok yakın olan bir dildir. Azerbaycan Cumhuriyeti'nin resmî dilidir. Azerice, Azerbaycan'da 8 milyon, İran'da ise 27-34 milyon kişi tarafından konuşulan Türk dilinin Oğuz (Batı) lehçelerinden biridir.

Sinonim sözcüğü; eş anlamlı, anlamdaş, müteradif, müradif anlamlarını taşırken, sinonimler sözlüğü, dildeki bu anlamdaş kelimelerin sözlük biçiminde hazırlanmış halidir. Elinizdeki çalışma İsmail Məmmədov ve Həsrət Həsənov'un ortaklaşa hazırladıkları, bu konuda yapılan çalışmaların ilki olma özelliğine sahip "Azərbaycan Dilinin Sinonimlər Lügəti" adlı sözlüğün, Kiril harflerinden Latin harflerine aktarılarak, transkribe edilmesi ve Türkiye Türkçesine çevirisinin yapılmasını ihtiva etmektedir. Burada amaç; Azerbaycan Türkçesindeki eş anlamlı kelimelerin Latin harflerinde kolayca görülüp Türkiye Türkçesindeki karşılıklarının verilerek bu konuda yapılabilecek çalışmalara ışık tutmaktır.

Çalışma yapılırken Ahmet Bican Ercilasun'un "Örneklerle Bugünkü Türk Alfabeleri" adlı kitabından da faydalanılmıştır. Ercilasun, kitabında Türkî lehçelerin alfabelerini ve bazı metinlerin karşılaştırmalı örneklerini vermiştir. Ercilasun, kitabının önsözünde Türk dünyasının içinde ancak; yıllarca birbirinden habersiz yaşamış Türklerin birbirlerinden haberdar olmaları için Türkî lehçeleri ve alfabelerini öğrenmelerindeki ehemmiyeti şu şekilde vurgulamıştır: "Taştan duvarlar ve demirden sesler artık insanları ve insanlar içinde Türkleri birbirinden ayıramıyor. Müziğin sesi, şiirin sesi ve Hoca Nasreddin'in gülümsemesi hem zamanın sınırlarını hem coğrafyanın engellerini aştı. Bilge kağan'ın 1258 yıl, Yusuf Has Hâcib'in 920 yıl öteden gelen seslenişi, Moğolistan bozkırlarından Balkan ovalarına kadar yayılıyor. Bu sıcak, bu güçlü alâkayı şimdi tek engel aksatıyor: Alfabe. Tarihin ve talihin yolunu açmak için atılacak ilk adım, bu engeli onu öğrenerek aşmaktır. Onu öğrenecek, öğrendikçe birbirimizi daha iyi tanıyacak, tanıdıkça lüzumlu olanı kavrayacağız." Ve kitabının yazılış amacını; "Dünya Türklerini birbirini okur hale getirmek" olduğunu belirtmiştir.

Azerbaycan dilinin sinonimler sözlüğünün basım yılı 1990 olarak belirtilmiştir. Sözlük 84x108 1/32 formatında olup sarı saman kâğıdına basılmıştır. Sözlüğün kapağı oldukça kalındır ve rengi açık kahverengi tonundadır. Lügatin ismi sözlüğün ön ve yan bölümüne kalın Kiril harfleriyle beyaz renkte yazılmıştır. Sözlükte iç kapak, 20 sayfalık önsöz ve tanıtım bölümünün ardından 450 sayfalık sinonimler sözlüğüne geçilmiştir. Sözlüğün sonunda küçük bir içindekiler bölümü verilmiştir. Lügat toplam 472 sayfadan oluşmaktadır. Lügatin orijinalinde ilk sözcükler italik, onu karşılayan sinonimler düz yazı şeklinde verilmiştir. Sözlüğün baş sözcüklerinin seçiminde sözcüğün edebi dildeki kullanımına, her mefhumun esas manasını daha açık ifade etmesine ve kelimenin diğer sözcüklerle ilişkisine dikkat edilmiştir. Ağır basan kelime ilk sözcük olmuştur. Kelimeler içinde çok nadir kullanılan parantezler dışında hiçbir açıklamaya yer verilmemiştir. Bu da sözlüğün kalabalıktan öte pratik bilgi ihtiva etmesinden ileri gelmektedir.

Bizim yapmış olduğumuz çalışmada kitabın orijinalinde var olan ve baş kısmında yer alan önsöz ve kitap tanıtımı mahiyetindeki bölüm, öncelikle Azeri Türkçesiyle sonrasında Türkiye Türkçesi'ne çevrilmiş şekliyle verilmiştir. Sözlük kısmında ise iki sütun tercih edilerek, Azeri Türkçesine ait sözlük kısmı sol, Türkiye Türkçesine çevrilmiş bölümü ise sağ sütunda sunulmuştur. Bu şekilde Azeri Türkçesinin sinonim sözcüklerinin Türkiye Türkçesindeki karşılıkları daha rahat görülmesi mümkün olacaktır. Çevirinin ilk kelimeleri eserin orijinalindeki şekliyle verilmiştir. Böylece Türkiye Türkçesindeki karşılığı daha kolay bulunacaktır. Sözlükte eserin orijinalindeki Azerbaycan alfabesi esas alınmıştır. Alfabenin sıralaması; "A, B, V, Q, D, E, Ə, Z, İ, Y, K, G, L, M, N, O, Ö, P, R, S, T, U, Ü, F, X, H, Ç, C, Ş" şeklindedir.

Sözlüğün baş kısmında bulunan Azeri Türkçesiyle yazılmış açıklamalardaki tırnak işareti içindeki ibarelerde « » işareti kullanılırken, Türkiye Türkçesine çevrilmiş bölümdeki ibareler " " şeklindeki çift tırnak içinde verilmiştir.

## TEŞEKKÜR

Bu güzel çalışmayı yapmama vesile olan, tezimi yöneten ve mevcut kaynaklara yönlendiren, saygıdeğer hocam Yrd. Doç. Dr. İbrahim Ethem Özkan'a sonsuz teşekkürlerimi bir borç bilirim…

**Esra ÇAKIROĞLU**

# İÇİNDEKİLER


**BİLİMSEL ETİĞE UYGUNLUK BEYANI ... i**

**KILAVUZA UYGUNLUK ONAYI ... ii**

**KABUL VE ONAY SAYFASI ... iii**

**ÖZET ... iv**

**ABSTRACT ... vi**

**ÖNSÖZ ... viii**

**TEŞEKKÜR ... x**

**İÇİNDEKİLER ... xi**

**AZERBAYCAN TÜRKÇESİ**

AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜGƏTİ ... 1

SİNONİMLİKDƏ DİLİN TARİXİ YAŞAYIR ... 3

SİNONİMİYA VE SİNONİMLER LÜGƏTİ ... 8

SİNONİMLƏRİ MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR ... 17

LÜGƏTİN QURULUŞU ... 30

**TÜRKİYE TÜRKÇESİ**

AZERBAYCAN DİLİNİN SİNONİMLER (EŞ ANLAMLILAR) LÜGATİ ... 33

EŞ ANLAMLI KELİMELERDE DİLİN TARİHİ YAŞIYOR ... 35

SİNONİMİYA VE SİNONİMLER LÜGATİ ... 40

SİNONİMLERİ BELİRLEYEN ETKENLER ... 49

LÜGATİN HAZIRLANIŞI ... 62

## AZERİCE–TÜRKÇE SÖZLÜK

**A** .......... 66

**B** .......... 86

**V** .......... 106

**Q** .......... 111

**D** .......... 140

**E** .......... 166

**Ə** .......... 170

**Z** .......... 183

**İ** .......... 190

**Y** .......... 201

**K** .......... 219

**G** .......... 227

**L** .......... 235

**M** .......... 239

**N** .......... 255

**O** .......... 261

**Ö** .......... 264

**P** .......... 267

**R** .......... 273

**S** .......... 277

**T** .......... 302

**U** .......... 325

**Ü** .......... 330

**F** .......... 335

**X** .......... 341

**H** .......... 349

**Ç** .......... 365

**C** .......... 378

**Ş** .......... 390

**KAYNAKÇA** .......... 405

**ÖZGEÇMİŞ** .......... 406

***İSMAYIL MƏMMƏDOV***

***HƏSRƏT HƏSƏNOV***

---

# *AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜGƏTİ*

® BAKI YAZIÇI

1990

C(Az)
M 52

R e d a k t o r u Filologiya Elmləri Doktoru,
Professor
TOFİQ HACIYEV
R ə ‘ y ç i l ə r: Filologiya Elmləri Doktoru, Azərbaycan SSR EA Müxbir Üzvü ZƏRİFƏ BUDAQOVA,
Filologiya Elmləri Doktoru
VAQİF ASLANOV

**Məmmədov İ., Həsənov H.**
M 52 Azərbaycan dilinin sinonimlər lügəti. B.: Yazıçı, 1990. – 472 s. ISBN 5–560–00495–2

Sinonim bolluğu dilimizin böyük imkanını, fikri ifadə ətmə zənginliyini, söz və deyimin rəng çalarlarını göstərən bir güzgüdür. Yazıçıların, ədəbiyyatçıların, mətbuat işçilərinin, tərcüməçilərin, məktəblilərin və müəllimlərin, Azərbaycancanı öyrənmək istəyənlərin ən yaxın köməkçisi olacaq bu işlək sinonim cərgələr Azərbaycan ədəbi dilini müasir mənzərəsindən, gəniş ərazidə işlənən və başa düşülən dialektlərdən seçilib bir araya gətirilmişdir.

Lügət praktik mə’lumat xarakteri daşıyır.

M 460203000–19 229–89 **C(A3)**
M–656–89

YAZIÇI,1990

## SİNONİMLİKDƏ DİLİN TARİXİ YAŞAYIR

Bir anlıga təsəvvür ədək ki, S.Vurgun məşhur «Uçarda turacdır, qaçarda ceyran» misrasında «uçar» yerinə «quş», «qaçar» yerinə «heyvan» deyə idi. Əlbəttə, nə böyük söz ustası elə işlədərdi, nə də biz elə təsəvvür edək. Ancaq dil həqiqəti budur ki, həmin məqamda *quş* və *uçar*, *qaçar* və *heyvan* sinonim sözlərdir. Hardasa bu sinonimlər bir-birini əvəz edə bilər, məsələn, biologiya kitabında. İş burasındadır ki, şairin misrasında *quş* və *heyvan* leksik vahidləri bədii mətnin necə sönük, emosiyasız, şəhdsiz-şirəsiz hala salardısa, biologiya kitabında da müvafiq terminoloji məqamlarda *uçar* və *qaçar* sözləri eləcə sün'i görünərdi. Deməli, bir-birinə uygun mə'nalı sözlər – sinonimlər dildə ona görə mövcuddur ki, hər birinin öz işlənmə yeri var; hər yerin öz sözü tapılmayanda çatışmazlıq duyulur. Əslində, yazıçının söz axtarışı da sinonimlərdən gərək olanını tapmaq əndişəsidir.

Dünyada az, ya çox dərəcədə bir-birinə oxşayan və ya bir-birinin eyni olan əşya, hadisə və xasiyyət o qədərdir ki. Ancaq bu oxşarların və eynilərin həm də müəyyən cizgi fərqləri var. Əşya və hadisələrin sözlə ifadəsində də həmin uygunluqlar və cizgi fərqləri qalır. Həmin uygunluq və fərq dialektikasını aydın qavramaq üçün rəng anlayışına göz yetirək: *Qara* rəngi var. Bu rəng solgun qaradan (qaramtıl) başlamış zil qaraya qədər dəyişir. *Qırmızı* da elə: Açıq qırmızıdan qanqırmızıyacan tündləşir. Əslində, bu çalar geçidləri üçün rəngin adları olmalı idi. Ancaq ədəbi dildə həmin çalarların hamısı qara və qırmızının içində yerləşir. Xalqın canlı dilində isə çox vaxt bu çalarların adı olur; yə'ni o çalarları bildirən söz vahidləri olur. Mənim yaddaşımda *qargaqanadı* rəngi var – o nə göydür, nə yaşıl; ikisinin də cizgiləri var, ancaq yaşıl cizgisi üstündür, buna görə də yəqin yaşılın çalarıdır. Həmin rəng təsəvvürümdə uşaq vaxtı kəndimizdə gördüyüm xalıların yeri (fon) və naxışları ilə canlanır; son 25–30 ildə onu harada gördüyüm yadıma düşmür.

Deməli, o rəng sənaye üçün yox, lirika üçün mövcud imiş. O rəng – çalarlar xalqın çöldə-çəməndə, meşədə-dağda gördüyü və düşüncəsində yaşatdığı anlayışlardır və xalqın canlı danışığında bunların adları var. Buna görə həmişə yazıçının dili bütün peşə sahiblərinin hamısının (alimin, jurnalistin, həkimin...) dilindən şirindir, duzludur, gözəldir. Çünki yazıçı söz – rəngləri xalqın canlı dilindən götürür; onun nitqində sinonim sözlərin cərgəsi ədəbi dildəkindən daha tutumludur.

Ədəbi dilin özündə də yazıçının dili sinonim zənginliyi ilə seçilir; sinonim cərgədə, deyildiyi kimi, sözlərdən hər biri müəyyən rəng, ya çalarla fərqləndiyi və yazıçı dili sözün rəng əlvanlığına söykəndiyi üçün belədir. *Qara saç* və ya *saçın qaralığı* anlayışının Nəsimi dilindəki ifadələrindən bir neçə təzahürə baxaq: *Qara saçın* ucunu salma ayağına, götür; Heyf olur nafəyi tatarə ki, hərca tökülür; *Qara zülfünü* rüx üzrə görəli gözüm nigarın; Dün ilə günüm həmişə qam u şam ilə səhərdir; Yatırkən dün gecə gördüm *siyah zülfünü* boynumda; Oyandım, dedim: ey dilbər, nədir bu rəmzimə tə'bir; *Saçının şəbində* üzü iki həftəlik qəmərdir; Bu sözü bilən bilür kim, bu nəzər necə nəzərdir; *Zülfün eəcəsi* qədrdürür, al yanağın ay; Me'rac üzün, sidrə boyun, qaşın iki yay; Qaşınla kirpiyin, *zülfün səvadı*; Dəlilü höcətü bürhanımızdır (ikinci misradakı *dəlil, höcət, bürhan* sözləri də sinonimdir). Hətta saçın qaralığının tündlüyü üçün *şəbi-yəlda* rəmzi (ilin ən uzun gecəsinin zil qaranlığı nəzərdə tutulur) sinonim cərgəyə çıxır: *Şəbi-yəldadurur* saçın gecəsi; Surəti bədrinə qəmər dedilər. Yaxud bir şərbət anlayışı (sevgilinin dodağının dadına işarədir) üçün klassik ədəbiyyatımızda nə qədər ifadə var: şərbət, zülal, abı-zülal, abı- heyvan, abı-həyat, çəşmeyi-heyvan, çeşmeyi-Zəmzəm, dirilik abı, həyat abı, dirilik suyu... *Sutqa* (24 saat) anlayışı *gecə-gündüz, dün ü gün, leyl ü nahar, şəb ü ruz* sinonimlərindən istifadə olunmuşdur. Belə misallar həm də göstərir ki, sinonimliyin ifadəsi tarixi səciyyə daşıyır.

Sinonimlər çox vaxt bir-birinin eyni olmur, bir-birini tamamlayır, bütöv anlayış vəermək üçün birbirini davam etdirir. Məsələn, əslində, *yanaq üzün* bir hissəsidir (özü də

iki mə’nada: əvvələn, üzün hər tərəfi bir yanaqdır – təsadüfi deyil ki, *yanaqlar* deyilir, *üzlər* yox; ikincisi, yanaq üzün bir tərəfinin də bir hissəsidir – yuxarı, almacıq hissəsi və onun ətrafıdır. Təsadüfi deyil ki, «yanaqlarından qan damır» ifadəsi var – almacıq hissəsində qırmızılıq çox olur). Amma şair burada *yanaq* və *üz* sözlərini sinonim kimi verir: Ey gülər, gülgün *yanağın* cənnətin xəndan gülü; gəl ki, anın firqətindən bağrımı yandırdı xar; Səhərdə gül üzün, şaha çü gülşəndə gülab oynar; Anı görüb səfasından fələkdə afitab oynar (Nəsimi). Hələ adi ünsiyyətdə yaxınlığı bilinməyən nə qədər sözlər M. Ə. Sabirin satirik mətnlərində sinonimləşir: Öylə bilirdim ki, dəxi sübh olub; Mürgi-səhər tək, bir ağız *banladım* – bu, *car çəkmək* fe’linin alleqorik sinonimidir. İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar; Əsrlərcə ömr edib, sülh içrə bulmuşkən qərar; *Fitneyi-iblisi-məl’un* oldu nagəh aşikar; Ta on beşə yetdikcə tapa *işdə* məharət... – Quldurçuluq örgət; ...nə çoxdur sən özün xoşladığın Sonya kimi qönçədəhan... birin, əlbəttə, alarsan, Bu *əməldən ucalarsan* – burada *fitnə s i y a s ə t, İblisi-məl’un ç a r, iş q u l d u r çu l u q, əməl n a k i ş i l i k, q u r u m s a q l ı q, ucalmaq ye r ə g i r m ə k, x ə c a l ə t ç ək m ə k* sözlərinin sinonimidir. Bunlar isə hamıya bəlli qaydada işlənən sinonimlərdir: *Çalxalandıqca, bulandıqca* zaman nehrə kimi; Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur.

Göstərilən misallardan o da aydın olur ki, sinonim bolluğu həmişə dilin «abatı xeyirliyindən» və ya təntənəsindən deyil; bə’zən sinonim cərgə milli vahidlərlə əcnəbilərin mübarizə meydanı olur – ana dilinin lügət taleyi sinonimlərdən hansının qələbə çalacağından asılı olur. Orta əsrlərdə ərəb-fars dillərinin Azərbaycanda dövlət dili olması ilə bağlı həmin mənbədən yazılı nitqimizə axınla söz gəlirdi. Hətta sinonim cərgədə yeddi yüzillik (XIII – XIX əsrlər) kəmiyyət üstünlüyü əcnəbilərin xeyrinə idi: saç – zülf – geysu, ay – qəmər – hilal – bədr, üz – rux – rüxsar – surət – camal – hüsn – xətt, günəş – şəms – aftab – xurşid və s. Silsilədə XVI əsrə qədər əcnəbi, sonralar isə milli vahidlərin işlənmə tezliyi artır və nəhayətdə Azərbaycan sözləri (saç, ay, üz, günəş) qalib çıxır. Əksi də olur:

ayaq – badə, tanıq – şahid, sayru – xəstə, sonuc – axır, uçmaq – cənnət... Bir neçə əsr paralel yaşayıb sinonim hüququnda işlənir, nəticədə isə əcnəbilər (badə, şahid, xəstə, cənnət) hüququ alır. Bə’zən tərəflərdən ikisi də qalır: buyruq – hökm – fərman, dəniz – dərya, say – hesab... Belə də olur ki, Azərbaycan sözlərinin özləri müəyyən müddət müvazi işlənir, sonra sinonimlərdən biri arxaikləşir: gecə – dün, igid–alp, tanış – biliş, qızıl – altun, getmək – varmaq, demək – ayıtmaq...

Beləliklə, sinonimlərin öyrənilməsinin timsalında dilin tarixi inkişafı haqqında, mübarizəsi və dözümü haqqında müəyyən təsəvvür almaq, zənginləşmə mənbələrini qavramaq olar. Yə’ni sinonimlik təkcə dilin zənginliyini göstərmir, həm də onun təmizlik və varlıq uğrunda mübarizə tarixini əks etdirir.

Əlbəttə, sinonimlik ümumişlək sözlər üçün səciyyəvidir; sinonimlik və çoxmə’nalılıq ümumişlək sözlərin iki tərəfi və bir-birini tamamlayan əlamətləridir.

Bu mə’nada, termin təkmə’nalı olduqu kimi, konkret terminoloji anlayışı ifadə etmək üçün də bir vahid olmalıdır. Bu elmi həqiqətə rəğmən müasir dilimizdə sinonim terminlərlə rastlaşırıq: Faciə – tragediya, bədii – poetik, surət–obraz, şəkilçi– affiks, dilçi–linqvist və s. Adətən, belə paralellik, termin sinonimliyi müəyyən vahidin sabitləşməsi yolunda keçiddir. Məsələn, XX əsrin əvvəllərində belə sinonim terminlər var idi: İctimaiyyun-amiyyun//sosial-demokrat, əfvi-ümumi//amnistiya, delfin//dəryanozu, admiral//dəryabəgi, drama//qaziyyə, aktyor//şəbihə və s. Yaxud 30-cu illərdə revolyu- siya və inqilab, kultura və mədəniyyət, sərmayədar və kapitalist füqərayi-kasibə və proletar.... Kimi terminlər müvazi işlənirdi. Göründüyü kimi, sonrakı onilliklərdə bu sinonimlərin qollarından biri düşdü. Bugünkü müvazi terminlər də haçansa sinonimsizləşəcək, yəni paralellər törəyəcək və habelə...

Doğma dilinin zənginliyinə bələd olmaq istəyən hər ziyalı vətəndaş üçün bu lügət gərəklidir. Ancaq, şübhəsiz, sinonimlik birinci növbədə yazıçı və jurnalisti maraqlandırır.

Əlbəttə, müvafiq rəngi vermək üçün yazıçı sinonim lügətinə müraciət etmir. Bununla belə sinonimlik kateqoriyası yazıçının yaradıcılıq istehsalatı ilə bilavasitə bağlı olduğundan bu kitab yazıçıya, hamıdan çox gərəklidir. Bu lügət maşın tərcümələri üçün də qiymətlidir.

Əlbəttə, bu, ilk təcrübədir və təbii ki, oxucular müəyyən çatışmazlıqlarla da qarşılaşacaqlar. İstərdik ki, lügətin gələcək nəşrlərində müəlliflər sinonimləri mətnlərdə versinlər, ayrı-ayrı söz ustalarının yaradıcılıq laboratoriyasına girib onların hansı sözü pozub, yerinə hansı sinonimi yazdıqlarını; göstərsinlər. Sinonimlər lügətinin nəşrində bu ikinci addım daha maraqlı olacaqdır.

**TOFİQ HACIYEV**

## SİNONİMİYA VƏ SİNONİMLƏR LÜGƏTİ

Sinonimlər hər dilin mə'na sistəminin real xüsusiyyətlərini əks etdirən dil hadisəsi kimi özünü göstərir. Sinonim termini dildə üç məqamda: Hər hansı bir dilin sinonimlərinin cəmi, leksikanın sinonimlərini öyrənən bölmə və üslubi mə'nalarda işlədilir.[1] Bə'zən sinonim termini «sinonimiya» və «sinonimlik» terminləri ilə qarışdırılır. «Sinonimlik» termini dilin bu və ya digər sahəsində sinonimlərin «sinonimiya» sözü isə dilin müvafiq xüsusiyyətlərini ifadə edən mə'nasında işlədilir.[2]

Sinonimiya hadisəsi tarixi kateqoriyadır. Lügət tərkibinin dəyişməsi və inkişafı ilə əlaqədar olaraq sinonimlər də dəyişir, inkişaf edir və sinonim cərgə yəni vahidlərlə zənginləşir. Dilin ümumi lügət tərkibində işləkdən düşmüş sinonimlərin bir qismi sinonim cərgədə yaşayır, həmin sözün ilkin formasını saxlayır, lakin ya mə'nasını, ya da işlənmə üslubunu dəyişir.

Sinonim terminini ilk dəfə qədim yunanlar işlətmişlər. Onlar məntiqi əlaqəsinə görə birləşən söz qruplarını sinonim adlandırmışlar. Bununla belə Yunan filosoflarının əsərlərində sinonimlərin oxşar və fərqli cəhətləri göstərilirdi. Kvintilon yazırdı: «Müxtəlif əşyaların adı müxtəlifdir: ya daha dəqiq, ya daha gözəl, ya daha ifadəli, ya daha yaxşı səslənir. Bunların hamısı mə'lum və hazır olmalıdır ki, lazım olan vaxt danışan onların ən **y**axşısını asanlıqla seçə bilsin. »[3]

Demokrit belə hesab edirdi ki, adların çoxluğu onlardan hər birinin adlanan əşyanın təbiətinə uygun gəlməsinə mane olmur. Eyni bir adamın müxtəlif materiallardan (məsələn, daş, metal, ağac və s.) düzələn bir neçə həykəli ola bildiyi və onların hər birinin həmin adama oxşadığı kimi, əyni bir əşyanın da onun mahiyyətini müxtəlif nöqteyi-nəzərdən ifadə

[1] O. S. Axmanova. Slovarv linqvistiçeskix terminov. M., 1966, səh. 406.
[2] A. P. Evqenova. Osnovnıe voprosı leksiçeskoi sinonimiki. Oçerki po sinonimike sovremennoqo russkoqo literaturoqo yazıka, M.—L., 1936, səh. 13.
[3] Bax: M. F. Palevskaı. Sinonimı v russkom yazıke. M., 1964, səh. 6.

edən bir neçə adı ola bilər.[4]

Aristotel sinonimlərin üslubiyyat və poetikadakı əhəmiyyətini və rolunu xüsusi qeyd edirdi: «Adlardan omonimlər sofist üçün əhəmiyyətlidir. Onların vasitəsilə o, hiyləyə əl atır, sinonimlər isə şair üçün əhəmiyyətlidir.»[5]

İnkişaf etmiş hər bir ədəbi dildə, xüsusilə onun bədii qolunda əvəzsiz ifadə imkanına, son dərəcə poetik deyim yükünə malik olan sinonimlər və sinonimlik türkologiyada XV əsrdən tədqiq olunur. Sinonimlərin əhəmiyyətini Əlişir Nəvai

«Muhakimətül- Lügəteyn» əsərində qeyd etmişdir.

Dünya filologiyasında sinonimlik uzun araşdırma tarixinə malik olsa da, bu sahədə fikir birliyi, vahid müəyyən etmə metodu, demək olar ki, yoxdur. Hətta bə’zi dilçilər sinonimliyin dildə reallıgını şübhə altına alırlar.

Lakin deyilənlər sinonimlərin dildə fiksiya adlandırılmasına əsas vermir, çünki sinonimlər müəyyən bir tədqiqatçının uydurması və ya subyektiv dərk etməsi deyil, dilin daxili inkişaf qanunları ilə bağlı olan, dilin strukturuna (leksika, qrammatika) xas olan hadisədir.

Dildə sinonimlərin yaranması və inkişaf prosesi: sözün təkmə’nalılıqdan çoxmə’nalılığa doğru inkişaf etmə və eyni məfhumları bildirmə prosəsi ilə bağlıdır. Əsas məfhumun və sinonimlərin, cərgələrinin müəyyənləşdirilməsi və onlar da dominantların ayrılması sözün leksik mə‘nasının təbiətindən asılıdır. Burada sözün leksik mə’nasının çoxmə’nalılığı və abstraktlaşma müxtəlifliyi əsas rol oynayır.

Sinonimiyada ən çox mübahisə doğuran məsələlərdən biri sinonimlərin müəyyənləşdirilməsidir. Sinonimlər nəzəri ədəbiyyatda mütləq eyniyyət təşkil edən, uygun, yaxın və ya həm eyni, həm də yaxın mə’nalı sözlər kimi izah olunur. Əksəriyyət sinonimləri formaca müxtəlif sözlər kimi qəbul etsə də, mə’na məsələsində onun şərhində

[4] Antiçnıe teorii yazıka i stilya. M.—L., 1936, səh. 33.
[5] Yenə orada, səh. 177.

müxtəliflik, fikir ayrılığı mövcuddur. «Lügət»də toplanmış sinonimlərin müəyyənləşdirilməsində aşağıdakı əlamətlər əsas götürülmüşdür:

1. Formaca müxtəlif, mə'naca bir-birinə yaxın olan sözlər.

2. Formaca müxtəlif, mə'naca eyni və ya yaxın olan sözlər.

3. Əsas mə'nasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mə'nasına görə fərqlənən sözlər.

4.Mə'na quruluşuna görə dil sistəmində eyniyyət təşkil edən söz və ya sözün leksik-semantik variantları.

Sinonim gərçəkliyin eyni əşya, hadisə, əlamət və ya hərəkəti ilə bağlı olan, onu müxtəlif formalarla adlandıran və fərqləndirən semasioloji hadisədir.

Sinonimlər müxtəlif münasibətlərdə eyni bir əşyanın adı olub, öz səs tərkiblərinə görə fərqlənən və bütövlükdə öz semantik oxşarlığını saxlayan sözlərdir. Mə'na ümumiliyi və üslub çalarlıq sinonimlərin əsas əlamətləridir.

Sözlər arasında sinonimik münasibətin yaranması onların leksik mə'naları ilə bağlıdır. Sözün leksik mə'nası dəyişdikcə onların arasındakı sinonim münasibət də dəyişir. Sinonim münasibət onların əvvəl olmadığı yerdə yarana bilər, yaxud əksinə, əvvəl mövcud olduğu yerdə itə bilər.

Sinonimlər eyni bir məfhumun müxtəlif çalarlığını ifadə edir. Əgər sinonimlər müxtəlif məfhumlarla bağlı olsaydı, onları öyrənmək çətinlik törətməzdi. Heç bir çətinlik çəkmədən müxtəlif məfhumların adlarını tutuşdurmaq, onların arasındakı fərqli cəhətləri asanlıqla müəyyən etmək olardı. Məhz sinonimlər eyni bir məfhumla əlaqədar olduğuna görə onların mə'na fərqlərini meydana çıxarmaq çətindir. Sinonimlərin bir məfhumu ifadə edən sözlər kimi qəbul edilməsi sinonimlərin mə'na çalarlarını müxtəlif məntiqi əsasda izah etmək imkanını rədd edir, onları sözün təbiəti ilə bağlayır.

Sözlərin sinonimliyini müəyyənləşdirərkən onlar arasındakı assosiativ əlaqəyə də fikir vermək lazımdır. Assosiativ əlaqə nəticəsində sözlər arasında sinonim münasibət yaranır. Bu əlaqə əsasında təfəkkürdə əşya və ya hadisənin yeni cəhətləri, əlamətləri əmələ gəlir. Həmin əşya və ya hadisə başqa əşya və ya hadisəyə əlamətlərinə görə oxşayaraq, ikinci dəfə adlana bilər. Məsələn, «yol» və «cığır» kimi sözlər arasında bu müxtəlif assosiativ əlaqələr olmuşdur. Sonralar bu sözlər arasında assosiativ əlaqənin bir cəhətinə görə sinonim əlaqə meydana gəlmişdir.

Sözlərin qarşılaşdırılması, mə'nası, dil sistemində və nitqdə rolu, bir məfhumla bağlılığı, assosiativ əlaqə  və mə'nanın motivləşməsi, üslubi çalarlığı və işlənmə sahəsi kimi anlayışlar sinonimlərin əsasında qoyulmalıdır. Bu əlamətlərə söykənən me'yar əsasında aşağıdakı hallarda sözlərin sinonim münasibətini qəbul etmək olar.

Bir ümumi mə'na ilə bağlı olan sözlər; Bir məfhumun müxtəlif çalarlığını ifadə edən sözlər; Müxtəlif üslublarda işlədilib emosional və ekspressiv çalarlığı ilə fərqlənən sözlər; Formaca müxtəlif sözlər; Eyni nitq hissəsinə aid olub bir cərgədə toplanan sözlər və s.

Sadaladığımız xüsusiyyətləri əsas götürüb sinonimlərə belə tə'rif vermək olar: Bir ümumi mə'na ilə əlaqədar olub, eyni bir məfhumu müxtəlif fonetik görkəmdə adlandıran, leksik-semantik variantlarına görə eyniləşən, mə'naca yaxın sözlərə sinonim deyilir.

Qeyd etmək lazımdır ki, sinonimlər özünü daha çox sinxron hadisə kimi göstərir. Bu da sözlərin ədəbi dilin müəyyən dövrünü əks etdirən mətndə və ya nitqdə başqa sözlərlə əlaqələnməsindən irəli gəlir.

Azərbaycan dilindəki sözlərin bir qismi nominativ və ya məcazi, bir qismi isə həm nominativ, həm də məcazi mə'nada sinonimlik münasibətdə olur. Məs.: ürəkli – qorxmaz, boş – mə'nasız sinonimlərində «ürəkli» və «boş» sözləri «qorxmaz» və «mə'nasız» sözlərilə məcazi mə'nada sinonimləşmişdir. Uca – hündür sözləri isə nominativ, vətənsiz –

yurdsuz, fağır – kasıb isə həm nominativ, həm də məcazi mə'nada sinonim olur. Sinonim cərgə çoxmə'nalı, düzəltmə, dialekt, alınma sözlərdən və frazeoloji birləşmələrdən ibarət ola bilir:

*Çoxmə'nalı sözlərdən: nazik – incə, böyük – iri, baş – nəfər;*

*Düzəltmə sözlərdən: çətinlik – zillət, düşüncəsiz – anlamaz;*

*Dialekt sözlərindən: uca – hündür – qəlbi, bura – bəri;*

*Alınma sözlərdən: işvə – naz, yəni – təzə, igid – cəsur və s.*

*Frazeoloji birləşmələrdən: ürək qapmaq, başına dolanmaq – başına dönmək və s.*

Sinonim cərgəni təşkil edən sözlərin semantik münasibəti barədə müxtəlif fikirlər olsa da, istisnasız olaraq hamı onlar arasında mə'na yaxınlığını təsdiq edir, çünki bu ümumi cəhətsiz sinonimlik hadisəsindən danışmaq mümkün deyildir.

Sinonimlərdə yaxınlıq sinonim münasibətdə olan sözlərin bir ümumi mə'na – bir məfhum ifadə etməsi ilə bağlıdır. Bir məfhum ifade etmələrinə görə sözlər bir- birinə yaxınlaşır. Onları bir-birinə yaxınlaşdıran bütöv məzmunlar deyil, ayrı-ayrı əlamətləridir. Həmin əlamət dilçilikdə sem adlanır. Sinonim münasibətdə olan sözlər müəyyən s e m l ə r e görə bir-birinə yaxınlaşır. Uygun gələn semlər arasında fərq olmur. Bələliklə, sinonim sözlərdə «yaxınlıq» onların ayrı-ayrı konkret mə'nalarındakı eynilikdən ibarətdir.

Sinonim qruplar dil vahidlərinin leksik və qrammatik mə'nalarının eyniləşdirilməsi yolu ilə ayrılır. Sinonim sözlər yalnız ayrıca semlərə görə yox, həm də ekspressiv və üslubi cəhətdən də eyniləşdirilir. Sinonimlər eynilik anlayışına əsasən birləşərək qapalı leksik-semantik qruplar yaradır.

Sinonimlərdə mə'naca yaxınlıq deyərkən ayrı-ayrı sözlərin mə'nalarına görə tam eyniliyini nəzərdə tutmaq olmaz. Çünki bir-biri ilə sinonim münasibətdə olan sözlər tam eyni mə'na ifadə etsə idi, həmin sözləri eyni mətn daxilində həmişə işlətmək mümkün olardı. Məs.:*Varlı – dövlətli – zəngin* sözləri bir-biri ilə sinonim münasibətdə olsalar da, bir-

birindən mə’na və üslubi xüsusiyyətlərinə görə fərqlənir. Yaxud: *dünya – aləm – cahan* sinonim sözlər bir məfhumu müxtəlif səs tərkibləri ilə adlandırır. Lakin bu sözlər eyni şeyi ifadə etsələr də, buna başqa-başqa tərəfdən yanaşır. Buna görə də onlar bütün məqamlarda bir-birini əvəz etmir. Sinonimliyin dildə əsas funksiyası da elə budur.

«Sinonimlər dildə «həm odur, həm də yox» formulunu gözləsə, yaşaya bilər. İki söz bir cəhətə görə uygun gəlsə də, başqa bir cəhətə görə fərqlənir. Əgər bütövlükdə sinonimlər «odur» olsa idi, onda onlar dildə öz vəzifəsini itirərdi. Dilin lügət tərkibini zənginləşdirmək əvəzinə zibilləyərdi».[6]

Potensial birləşmələrdə mə’naca bir-birinə yaxın olan leksik-semantik söz qrupları yaranır. Leksik-semantik söz qrupları konseptual sahə (qarşılıqlı əlaqədə olan məfhumlar) əmələ gətirir. Bu konseptual sahədə mə’naca yaxın olan sözlərin hamısı sinonim olmur. Çünki orada həm eyni, həm də müxtəlif məfhumları ifadə edən məntiqi mə’naca yaxın sözlər olur. Bir konseptual sahədə bir məfhumu neytral ifadə edən mə’naca yaxın ləksik-semantik söz qrupları sinonim ola bilər. Ancaq belə sözlər eyni nominativ funksiyası olub, bir məfhumu müxtəlif işarələrlə bir sinonim cərgədə göstərə bilər. Məs.: *arzu – istək – dilək, namus – qeyrət – ar* və s.

Konseptual sahədəki sinonim əmələ gətirən leksik-semantik söz qrupları ümumi formal-grammatik, distributiv xüsusiyyətlərə malik olmalıdır.[7]

Deməli, iki sözün sinonim münasibətdə olmasını təsdiq etmək üçün onların mə’naca bir-birinə tam uygunluğunu deyil, həmin sözlərdə ayrı-ayrı semlərin eyniliyi amilini qəbul etmək lazım gəlir.

Sinonim olan sözlərdən birinin bir leksik-səmantik variantı digər sözün bir leksik-səmantik variantına uygun gəlir. Buna görə onlar bir-birinə yaxın, nominativ funksiya e’tibarilə isə eyni olur və mətndə bir-birini əvəz edə bilir: Məs.: *faqır– kasıb, dəli – ağılsız*

[6] A.A RəformatskiÏ. Vvedenie v yazıkovedenie. M., 1967, səh. 94.

və s. Bu sözlər bir-biri ilə sinonim olsalar da, bir-birindən ancaq uygun gəlməyən leksik-semantik variantlarına görə fərqlənir.

Distributiv formula əsasən iki müxtəlif sözün ayrı-ayrı leksik-semantik variantlarının uygun gəlməsi sinonimlər üçün formal əlamətdir.

* *

*

Müasir dilçilikdə mütləq və nisbi sinonimlər müxtəlif şəkildə şərh edilir. Xüsusən mütləq sinonimləri eynimə'nalı sözlərlə bağlayırlar. Eynimə'nalı sözlər mütləq, tam, daimi, neytral sinonimlər və ya leksik dubletlər, variantlar, ekvivalent və paralel sözlər terminləri ilə izah olunur. Tədqiqatçıların bir qismi eynimə'nalı sözləri sinonimlər üçün xarakterik, digər hissəsi isə onları sinonimlərə yad, tipik olmayan hadisə hesab edir.

Eynimə'nalı sözləri mütləq sinonim kimi izah edənlər mütləq sinonimləri mə'naca və işlənməsinə görə tam uygun gələn sözlər kimi müəyyənləşdirirlər.

Sinonimləri əmələ gətirən sözlər bir-biri ilə nə qədər yaxın olsalar da, hər halda onların arasında incə mə'na və üslub fərqlərinin olduğunu söyləyənlər eyni zamanda heç bir mə'na çalarlığına malik olmayan eynimə'nalı sözləri də sinonim adlandırırlar.

Sinonimləri eynimə'nalı sözlər kimi izah etmək olmaz. Çünki eynimə'nalılıq sinonimlərin təbiətinə uygun deyildir. Əgər mütləq eynimə'nalı sözlər sinonim deyilsə, bəs mütləq sinonim varmı? Bu suala dildə tam eynimə'nalı olan sözlərin olub olmadığını izah etmədən cavab vermək olmaz.

Başqa dillərdən eyni məfhumu ifadə etmək üçün alınmış sözlərin bir qismi həmin dildə həç bir mə'na və üslubi çalarlığa malik olmadan işlədilərək dildə dubletlərin meydana gəlməsinə şərait yaradır, digər qismində isə yeniləşmə gedir. Yeni məfhumları adlandırmaq

---

[7] Q. D. Apresin. O ponitiixi i metodax strukturioy leksikoloqii. Problemı strukturnoy linqvistiki, M., 1962, səh. 154.

bazası olur. Dildə belə eynimə’nalı sözlərin işlədilməsi lazımdır, bunlar semi dilin dəqiq və aydın ifadəçisi olur.

Eynimə’nalı sözlərin dildə yaşaması leksik vahidlərin bütün aspektlərinin (semantik, fonetik və qrammatik) bir-biri ilə əlaqədar olması ilə bağlıdır. Onlardan birinin dəyişməsi o biri aspəktlərin də dəyişməsinə səbəb olur. Əslində isə bu belə deyildir. Omonimlərdə də vəziyyət belədir. Omonimlərdə mə’na dəyişir, amma forma qalır. Əynimə’nalı sözlərin də forması qalır, mə’nalarında fərqli cəhətlər əmələ gəlir. Demək, səs tərkibi – maddi cəhətin inkişafı leksiq vahidlərin semantik-üslubi dəyişməsinə tə’sir göstərmir. Dəyişmə üslubi-səmantik plandadır.

Bu göstərir ki, sözlərin səs kompleksləri ilə mə’naları arasında üzvü əlaqə yoxdur. Bu cəhət eynimə’nalı sözlərin yaşamasına şərait yaradır.

Eynimə’nalı elə sözlər uzun müddət fəaliyyət göstərir ki, mə’na və üslubi cəhətdən diferensiallaşır. Mə’na və üslubi rəngarəngliyə malik olan sözlərin ömrü uzun olur. Daha doğrusu, bu əlamətlər onun yaşamasını tə’min edir.

Mə’naca eyni, fonetik tərkibcə və mənşəyinə görə müxtəlif olan sözlər dublet və variantların əsas bazasıdır. Eynimə’nalı sözlər o zaman dublet və ya variant kimi işlədilir ki, onlardan biri əsl sözlə mə’naca eyniləşir, işlənmə sahəsi daralır. Getdikcə işləkdən düşür.

Eyni mə’nalı sözlərin həmin dildə mövcudluğu əsasən üç amillə əlaqədardır:

1. Bir məfhuma bir-biri ilə əlaqəsi olmayan ixtiraçıların eyni zamanda müxtəlif adlar verməsi ilə əmələ gəlir.

2. Mətnin tə’siri ilə bir neçə leksik vahid yaranır.

3. Alınma və ya dialekt sözlərin ədəbi dildə işlənən sözlə paralel işlədilməsi nəticəsində alınır.[8]

---

[8] Leksiçeskaya sinonimiya. M., 1967, səh. 134.

Eynimə’nalı sözlərin özünə məxsus bir sıra xüsusiyyətləri vardır:

1. Onlar əsasən terminlə əlaqədar olduğu üçün nominativ xarakterlidir.

2. Onlar mə’na və üslubi çalarlığa malik deyildir.  Bir üslubda işlədilir.

3. Onların fəaliyyəti dilin sinxron vəziyyəti ilə bağlıdır.

Bu xüsusiyyətləri sinonimlərə aid etmək olmaz. Çünki onlar mə’na və emosional-üslubi xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Əgər sinonimlərə mə’na incəliyi və üslubi xüsusiyyətləri əsas əlamət kimi qəbul etsək, onda mütləq eynimə’nalı kimi işlənən «mütləq sinonimlər» yoxdur. Bu mə’nada, «mütləq sinonim» terminini «dublet» termini ilə əvəz etmək olar. Çünki həmin sözlər dublet xarakterlidir.

## SİNONİMLƏRİ MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR

Sinonimlərə aid yazılmış məqalə, əsər və monoqrafiyalarda tədqiqatçıların bir qismi sinonimlərə xalis dil, digər bir qismi məntiq, başqa bir qrupu isə məntiqi- qramatik nöqtəyi-nəzərdən yanaşmışdır. Məhz buna görə də sinonimləri fərqləndirmək üçün mə'naca yaxınlıq və ya eynilik, mə'na və üslubi çalarlıqlar, birləşmə eyniliyi və ya distribusiya əlamətləri birlikdə deyil, onların hər biri ayrılıqda əsas əlamət kimi qəbul olunmuşdur.

Sinonimləri aşağıda göstərilən kompleks me'yarlara əsasən müəyyənləşdirmək olar:

1) Əşyavi-məntiqi-qrammatik amil,

2) Mə'na ümumiliyi,

3) Mə'na yaxınlığı,

4) Cərgə düzəltmə,

5) Qarşılıqlı əvəzetmə,

6)Müxtəlif quruluşluluq,

7) Eyni nitq hissəsinə aidlik,

8) Eyni funksiyalılıq,

9) Çoxmə'nalılıq.

**1.Əşyavi-məntiqi-qrammatik amil.** A. P. Yevgenyeva qəyd edir ki, sinonimləri xarakterizə etmək üçün əşyavi-məntiqi əsas ən obyəktiv me'yardır. Əşyavi-məntiqi əsas sinonimləri müəyyənləşdirən amillərdən biri ola bilər. Çünki əşya və məfhum dil hadisəsi deyildir. Onlar sözün mə'nasını inkişafda müəyyən edir. Əşyavi-məntiqi amilə görə sinonimlərdə mə'na eyniliyi əsasdır. Bu me'yara əsasən sinonimlərə yalnız bir məfhumu ifadə edən və fikrin əşyavi-məntiqi məzmununa zərər gətirmədən hər hansı mətndə bir-birini əvəz edə bilən sinonimləri aid etmək olar.

V. A. Zveqentsev «Əşyavi-məntiqi əsası» tənqid edir və göstərir ki, «xrabrıy» və «otvajnıy» sözləri əşyavi-məntiqi əsasa görə yox, birləşmə eyniliyinə və ya distribusiyaya

görə sinonim hesab etmək olar.[9]

Əşyavi-məntiqi amildə sinonimlərin müəyyən bir qrammatik kateqoriyaya aid olması nəzərə alınmır. Belə ki, isim, sifət və fe'l bir sinonim cərgədə durur.

Qrammatik kateqoriyanın rolunu qiymətləndirmədən isim, sifət və fe'llərin müxtəlif şəkildə sinonimləşdiyini sübut etmək çətindir.

**2.Mə'na ümumiliyi.** Sinonimləri xarakterizə edən amillərdən biri də ümumiləşdirici bir əsas mə'nadır. Mə'na ümumiliyi adı altında sinonimlərin bir məfhum ifadə etmələri nəzərdə tutulur. Mə'naca yaxın, formaca müxtəlif sözlər bir məfhumu bildirmələrinə görə birləşir. Sinonimlərdə ümumi olan əşya deyil, məfhumdur. V. Humbolt yazırdı: «Söz hissi qavranılan əşyanın əkvivalenti deyildir. Lakin dildə ona aid tapılan sözün vasitəsilə möhkəmləndirildiyini başa düşürük. Bir predmətin çoxcəhətli ifadə olunmasının əsas mənbəyi burdadır. Məsələn, sanskrit dilində dil gah iki dəfə içən, gah iki dişli, gah da əllə təchiz olunmuş adlansa da, lakin bir predmət kimi görünür. Bu, ona görə olur ki, dil predmətin özünü deyil, məfhumu ifadə edir. »[10]

Məs.: *yersiz – yurdsuz– məskənsiz* sözləri bir ümumi mə'na – məfhum ifadə etdikləri üçün sinonim münasibətdədir. Bunlar birbirindən işlənmə yerinə və üslubi xüsusiyyətinə görə fərqlənir.

**3.Mə'na yaxınlığı.** Hər mətndə əsas və emosional mə'nada cüzi dəyişiklik etmədən bir-birini əvəz edə bilən sözlərdə mə'na yaxınlığı yox, tam mə'na eyniliyi vardır. Sinonimlərdə mə'na yaxınlığı bir məfhumla bağlıdır. Burada sinonim sözlərin bütün mə'naları deyil, onların leksik-semantik variantlarının eyniliyi nəzərə alınır. Məs: *var– dövlət – sərvət*. Bu sinonim cərgədə olan sözlərin hər birinin ancaq bir- birinə uygun gələn leksik-semantik variantları ifadə olunur. Həmin sözlərin eyni leksik-semantik variantlarını nəzərə almadan onlarda mə'naca yaxınlığın dərəcəsini müəyyən etmək əsassız olardı.

---

[9] V. A. Zveqenyev. Teoretiçeskaya İ Progladnaya Linqvistika. M., 1968, səh. 131.
[10] Bax: A. A. Reformatskia. Vvedeie v yazıkovedenie. M., 1957, səh. 91.

**4.Sinonim cərgə.** Sinonimlər bir məfhum ifadə edən müxtəlif fonetik tərkibli sözlərdir. Belə semantik münasibətdə olan söz qrupları sinonim cərgə adlanır. Sinonim qruplar müxtəlif quruluşlu sözlərin leksik-semantik variantlarına görə birləşərək, bir-birilə əlaqədar olur, başqa sözlərə öz münasibətlərini bildirir, birləşir. Məs.: *yaş – nəm – sulu – höyüş* sözləri bir sinonim cərgədə birləşərək bir məfhumu müxtəlif tərkiblərlə ifadə edir. Bu sözlər bir-biri ilə qarşılıqlı əlaqədə olub cərgədə müəyyən yer tutur. *Yaş – nəm – sulu – höyüş* sinonim sözlərin ifadə etdiyi mə’nada ümumiləşdirici bir məfhum var. Bu cərgə üzvləri üçün eyni olan «su» məfhumudur. Cərgəni əmələ gətirən sözlər gərçəkliyin bir əşya və ya hadisəsinin müxtəlif cəhətlərini müxtəlif baxımdan işıqlandıraraq bir ümumi mə’naya əsasən birləşir.

Sinonim cərgə tarixi anlayışdır. Ona dilin ümumi sistemində qapalı mikrosistem, təcrid olunmuş və ancaq öz xüsusi qanunları ilə yaşayan söz qrupu kimi yanaşmaq olmaz. Sinonim cərgə dilin inkişafı ilə əlaqədar dəyişir, inkişaf edir, dağılır, köhnəlir, yenisi əmələ gəlir və s.

Dilçilik ədəbiyyatında sinonim cərgə «tarixən qrammatik mə’na ümumiliyi əsasında qruplaşan sistəm xarakterli sözlər».[11] «Sinonim münasibətli söz qrupları»[12] «tarixən dəyişkən, lakin öz əsas dəstəsinə görə az və ya çox dərəcədə daimi olan, obyektiv gərçəkliyin bir hadisəsini ifadə edən, mə’naca şərti yaxın söz qrupları»[13] və s. kimi müəyyən edilir.

Qapalı cərgə yaradan, mətn daxilində (əsasən) bir-biri ilə leksik cəhətdən əlaqədar olan, bir-birinə leksik-semantik variantlarına görə eyni olan, minimum ümumi qrammatik mə’naya malik olan, bir məfhumu müxtəlif tərkiblərlə adlandıran sözlər sinonim cərgələrin üzvləri ola bilər. Məs.: *axır – nəticə, gəlir – qazanc, yetişmək – çatmaq* və s.

---

[11] K. D. Apresyan. Problemı sinonima. Voprosı yazıkoznanıya, M., 1957, No: 6, səh.84.
[12] V. A. Sirotina. Leksiçeskaya sinonimika v russkom yazıke Lıvov, 1960.
[13] M. F. Palevskaya. Sinonimı v russkom yazıke. M., 1964, səh. 62.

Sinonim cərgənin üzvləri, əsasən, gərçəkliyin bir əşya və ya hadisəsini müxtəlif şəkildə adlandıran, onun müxtəlif cəhətlərini ifadə edən, mə'naca bir-birinə yaxın, müxtəlif köklü, eyni formalı sözlər olur. Lakin bə'zən müxtəlif qrammatik formalı eyni köklü və mə'nalarına görə bir-biri ilə sinonim olmayan sözlər də sinonim cərgənin düzəlməsində iştirak edir.

Mə'nalarına görə sinonim münasibətdə olmayan sözlərin sinonim cərgənin bir üzvü kimi işlədilməsi üslubla əlaqədardır. Yazıçı öz fərdi üslubuna əsasən mə'naca bir-birindən uzaq sözləri bir ümumi mə'nada birləşdirir. Bədii dil sistəmində bə'zən elə geniş və gözlənilməz kontekstlər yaranır ki, öz əsas mə'nalarına görə çox uzaq olan sözlər fikri obrazlı ekspressiv ironik ifadə etmək üçün bir sinonim cərgədə birləşir...»[14].

Məsələn, *paltar – libas – çuxa – əba – kürk – çul; ev – otaq – mənzil – koma – daxma – xanə* kimi söz qruplarının ifadə etdikləri əşyalar ümumi funksiyaya əsasən bir-birinə yaxınlaşır, lakin bu cəhət həmin sözləri leksik cəhətdən birləşdirməyə əsas vermir. Çünki həmin sözlər sinonim cərgələr yaratmır. Lakin fərdi üslubda müxtəlif əşyalarla bağlı olan sözləri ümumi funksiyaya görə sinonim cərgələrdə qruplaşdırmaq olar. M. Ə. Sabir öz satiralarında ümumi funksiya görə bir- birinə oxşar əşyaların adları olan bu sözləri ümumi paltar və ev anlayışlarını vermək üçün sinonim cərgələrdə qruplaşdırmışdır. Sabir satiralarında *böyükdə – zorbada – bəylərdə – xanda; tazələr – cavanlar – haramzadələr; heyvərələr – kafirlər – nadanlar; şövkətlilər – şanlılar – dövlətlilər – pullular – milyonlılar; tirboyunlar – şişqarınlar – canlılar* sinonim kimi işlənmişdir.[15]

Sinonim cərgənin üzvləri əsasən müxtəlif köklü sözlərdən təşkil olunur. Eyni köklü sözlər söz düzəldici şəkilçilərə əsasən sinonim cərgə düzəldə bilər. Məsələn: *gəzəyən – gəzən; incik – incimiş; baxış – baxım* və s. Lakin müxtəlif dillərə məxsus olan eyni funksiyalı şəkilçilərin eyniköklü sözlərə əlavəsi sinonimlik yaratmır.

[14] V. V. Vinoqradov. O yazıke xudojestvennoi literaturı. M. 1953, səh. 118.

Sinonim cərgənin bütün üzvləri eyni formada olmalıdır. Məsələn, cərgə üzvləri isimlərdən ibarətdirsə, onda onların hamısı ismin eyni halında işlədilməlidir, təklik bildirməlidir: *aləm – cahan – yer üzü – ərz – dünya; dərman – dəva – əlac; müharibə – dava – vuruş* və s.

Bir sinonim cərgədəki sözlər mə'na ümumiliyinə, bir məfhum ifadə etməsinə və eyni qrammatik formalı olmasına görə birləşsələr də, bir-birindən bir sıra xüsusiyyətlərinə görə seçilir: 1. Mə'naca tam eyni olmamalarına; 2. Üslubi çalarlarına; 3. İşlədilmə sahəsinə; 4. Başqa sözlərlə birləşməsinə görə və s.

Bu və ya digər sözün sinonim cərgənin üzvü olub olmaması müqayisə yolu ilə də müəyyənləşdirilir. Tutuşdurulan söz əsas sözün mə'nası ilə bir ümumilik yaradırsa, deməli, onu cərgənin üzvü hesab etmək olar. Cərgənin hüdudu praktik üsulla da, qarşılıqlı əvəzetmə ilə də bəlli olur. Əvəz olunmada da ümumi mə'na ifadə etmək və bir məfhumla bağlılıq gözlənilməlidir.

Cərgənin hüdudunu mə'naca yaxın sözlər arasındakı mə'na fərqinə görə də müəyyən etmək mümkündür. Mə'na yaxınlığı deyərkən bir qrupa aid sözlərin bir məfhum ifadə etməsi nəzərdə tutulur.

Sinonim cərgələrin hüdudunu müəyyənləşdirmək üçün mə'na əsası, mə'na eyniliyi və mə'naca yaxın sözlər arasındakı fərqlərin xarakteri kimi me'yarlar irəli sürülür. Bu me'yarların hər üçü mə'na ilə bağlıdır. Buna görə də məfhumi əsasın eyniliyini sinonim cərgələrin hüdudunu göstərən əsas me'yar həsab etmək olar. Çünki mə'na ümumiliyi sinonim cərgələrin əsasını təşkil edir. Mə'na ümumiliyinə görə müxtəlif sözlər bir sinonim cərgədə birləşir. Məs.: *qarşı – müqabil; – üzbəüz ziddinə – əksinə* və s.

Sinonim cərgənin müəyyənləşdirilməsində sözün çoxmə'nalılığı və omonimliyi də nəzərə alınmalıdır. Hər hansı bir çoxmə'nalı sözün mə'naları təsvir edildikdən sonra

---

[15] Bax: R. Məhərrəmova. Sabirin satirik şe'rlərinin leksikası. Bakı, 1968, səh. 15, 18, 19.

sinonim cərgənin üzvlərini dəqiqləşdirmək, seçmək olar. Sinonim cərgənin bir üzvü və ya hamısı çoxmə’nalı ola bilər. Bir cərgədə çoxmə’nalı sözün bir mə’nası əsas götürülməlidir.

Omonim cərgələrin hər bir üzvü başqa sözlərlə birləşərək müxtəlif sinonim cərgələr yaradır. Məsələn: *alçaq, əski* və *göy* omonim sözlər başqa sözlərlə aşağıdakı sinonim cərgələri əmələ gətirir:

*alçaq – qısa – gödək,* *əski – cındır,* *göy – göyərti*

*alçaq – rəzil – əclaf ,* *əski – köhnə,* *göy – səma* və s.

Sinonim cərgənin üzvlərini müəyyənləşdirərkən sinonim sözlərin müasir ədəbi dil mənzərəsi nəzərə alınmalıdır. Müasir ədəbi dil sinonim cərgənin komponentlərini seçib birləşdirmək üçün əsas me’yardır. Əks halda cərgə köhnəlmiş, arxaik və məhəlli sözlərlə yüklənir. Lakin bu, köhnəlmiş və məhəlli sözlərin sinonim cərgə üzvləri olmasını tamamilə inkar etmir. Köhnəlmiş və ya məhəlli sözlər cərgənin ümumi işlək sözünün üslubi variantı kimi cərgəyə daxil olur. Onlar müasir ədəbi dildə ayrıca müstəqil cərgə kimi yox, sinonim cərgənin bir üzvü kimi işlədilə bilər.

Mə’naca bir-biri ilə əlaqədar olan müxtəlif formalı sözlərin bir hissəsini sinonim cərgə adlandırmaq olmaz. Aşağıdakı hallarda mə’naca əlaqədar olan müxtəlif fonetik tərkibli sözlər sinonim cərgələrin üzvü ola bilmir:

1. Bir-biri ilə növ əlaqəsində olmayan sözlər: *paltar, ayaqqabı, bağ, dağ, çay* və s.

2. İnkar şəkilçili eyniköklü sözlər: *bisavad-savadsız, nainsaf-insafsız* və s.

3. Konkret əşya, hadisə və əlamət adları olan sözlər: *karandaş, kitab, dəftər, bıçaq* və s.

Sinonim cərgələr iki-, üç-, dörd- və çoxüzvlü ola bilər.

Sinonim cərgə üzvlərinin işlənməsinə görə də fərqlənir. Bu cəhətdən sinonim cərgələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bütün üzvləri ədəbi dildən olanlar: *yəni – təzə; var – döv – dövlət – əmlak*; *bərk – möhkəm; qəm – kədər – qüssə* və s.

2. Biri və ya ikisi ədəbi dildən, digəri dialektdən olanlar: *böyük – yekə; kiçik – balaca – dıqqılı; bura – bəri; ana – məmə – nənə* və s.

3. Biri müasir ədəbi dildən, digəri arxaik olanlar: *böyük–ulu; aşıq – ozan* və s.

4. Biri ədəbi dildən, digəri vulqarizm: *alçaq – əclaf; rəzil – alçaq* və s.

